FRIEDRICH EBERT STIFTUNG

PFMC

# Neft-qaz gəlirlərinin sosial gərginliyə təsiri

## Azərbaycan təcrübəsi



Fridrix Ebert
Fondu

İctimai Vəsaitin
Monitorinqi Mərkəzi

# NEFT-QAZ GƏLİRLƏRİNİN SOSİAL GƏRGİNLİYƏ TƏSİRİ AZƏRBAYCAN TƏCRÜBƏSİ

Bakı – 2010

Kitab Almaniyanın Fridrix Ebert Fondunun (Friedrich-Ebert-Stiftung)
maliyyə  dəstəyi ilə çap edilib.

İnqilab Əhmədov, ingilab@pfmc.az;
Kənan Aslanlı, kenan@pfmc.az;
Rasim Musabəyov, musabeyov@gmail.com

İctimai Vəsaitin Monitorinqi Mərkəzi
Ünvan: 44, C. Cabbarlı küç., 9-cu mərtəbə,
Bakı AZ1014, Azərbaycan
Tel/Fax: (+994 12) 497 89 67, 497 04 67
E-mail: office@pfmc.az
www.pfmc.az

# Mündəricat

Giriş ........................................................................................ 4

1. Neft-qaz gəlirlərinin sosial gərginliyə təsiri ilə bağlı
araşdırmalar və beynəlxalq təcrübə ................................................ 6

2. Azərbaycanda neft gəlirlərinin artımı fonunda sosial durum...... 16

3. Sosioloji sorğu nəyi göstərir: əsas sosial nəticələr .................... 28

4. Azərbaycan özəlliyi, mümkün perspektivlər və tövsiyələr.......... 30

Əlavə 1. Tanınmışlar cəmiyyətdə sosial gərginlik simptomları
haqda nə deyir (2008-2010)? ........................................................ 34

Əlavə 2. XX əsrin ikinci yarısında, resursla zəngin ölkələrdə
baş verən və hər birində, ən azı, 1000 nəfərin öldüyü vətəndaş
müharibələri.................................................................................. 36

İstinad edilən mənbələr ................................................................ 39

## Giriş

*Həqiqi sülh yalnız gərginliyin olmaması deyildir, daha çox ədalətin mövcud olmasıdır.*

Martin Lüter Kinq

Təbii sərvətlərin iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi olması fikri son illər ciddi mübahisə mövzusu olmuşdur. Elə buna görə də ölkənin sosial-iqtisadi həyatının təbii resursların (xüsusən də neft və qazın) hasilatından yüksək asılılığının doğurduğu fəsadları əks etdirən "resurs lənəti" *(resource curse)* termini öz populyarlığını getdikcə daha da artırmaqdadır. Son illər aparılan tədqiqatları ümumiləşdirsək, "resurs lənəti" konsepsiyasının resursdan asılı olan ölkələrin qarşılaşdığı 3 mühüm neqativ fəsadı əhatə etdiyini söyləmək olar: (i) getdikcə səngiyən iqtisadi artım tempi; (ii) qeyri-demokratik siyasi rejim; (iii) zorakı sosial konfliktlər.

Biz bu tədqiqatda məhz 3-cü istiqamətin Azərbaycanda yaranmasına təkan verə biləcək sosial gərginlik və vətəndaş qarşıdurması ehtimalı ilə artan neft-qaz hasilatı və bu hasilatdan daxil olan gəlirlərin idarə olunması sistemi arasında əlaqə qurmağa çalışacağıq.

Azərbaycanın 2024-cü ilə qədər neft və qazdan əldə olunan gəlirləri xalis cari dəyər ifadəsində 198 mlrd.$ səviyyəsində gözlənilir (2008-ci ilin iyun ayının neft hasilatı proqnozlarına əsasən).[1] 20 ilə yaxın müstəqillik dönəminə sahib olan Azərbaycanda ixracın minimum 90%-i, büdcə gəlirlərinin minimum 60%-i, ÜDM-in isə minimum 50%-i neft-qaz sektorunun payına düşür (2009-cu il üçün).[2] Bu asılılığa gətirən müstəqillik yollarında Azərbaycanda hakimiyyət uğrunda minimum ***6*** ciddi vətəndaş qarşıdurması (1992, 1993, 1994, 1995, 2003, 2005-ci illər) və həll olunmamış Dağlıq Qarabağ konflikti ilə qarşılaşmışıq. Yuxarıda sadalanan konfliktlərin hamısının "resurs mənşəli" olduğunu, bəlkə də, iddia etmək olmaz, ancaq ölkənin zəngin təbii sərvətlərə malik olmasının bu və ya digər səviyyədə həmin sosial və etnik qarşıdurmalara təsiri də qaçılmaz olmuşdur.

---

[1] http://siteresources.worldbank.org/AZERBAIJANEXTN/Resources/Azerbaijan_CEM_FINAL_AZE.pdf

[2] Rəsmi statistika əsasında müəlliflərin öz hesablamaları

İstənilən cəmiyyətdəki sosial gərginliyin silahlı qarşıdurmaya çevrilməsi riski həmişə qalmaqdadır. Bu isə son nəticədə dövlətin dayanıqsızlığına (*state fragility*) və baza funksiyalarını çətin yerinə yetirməsinə gətirib çıxara bilir. Həmin prosesdə həssas sosial qruplar (aztəminatlı təbəqə, işsizlər, qaçqın və məcburi köçkünlər, mülkiyyət hüquqları pozulanlar, məhkum olunaraq məhbəs həyatı yaşamış insanlar, aktiv miqrantlar və s.) həm gərginliyin səbəbi, həm də nəticədə daha çox zərər çəkənlər kimi çıxış edirlər. Güclənən hakim siyasi rejimlər isə bəzən repressiv metodlarla sosial gərginlikləri dövri olaraq səngidə bilirlər. ***Neft-qazla zəngin ölkələrdə hökumətlər sosial gərginliklə üzləşməmək üçün gerçək hakimiyyət bölgüsünü zəiflədən meyillərdən uzaq olmalı, insan hüquqlarına hörmətlə yanaşmalı, maliyyə intizamı və ədalətli sosial siyasəti bərqərar etməli, təhsil və səhiyyə xidmətlərinin keyfiyyətini davamlı olaraq yüksəltməlidir.*** Bu prosesdə iqtisadi faktorlarla yanaşı qeyri-iqtisadi faktorların (coğrafi, siyasi, mədəni və s.) da müəyyən rolu var. Təbii ki, Azərbaycan timsalında ölkənin keçdiyi müharibə dövrünün sosial travmaları və əhalinin öz hüquqları barədə zəif məlumatlılıq səviyyəsi faktoru da unudulmamalıdır.

Biz bütün bu məsələlərin əlaqəliliyini Azərbaycan mühitində ilk dəfə aydınlaşdırmağa çalışacağıq və bunun üçün öncə bu istiqamətdə aparılan beynəlxalq araşdırmalarla tanış olacaq, sonra isə Azərbaycandakı mövcud vəziyyəti aparılan sosioloji monitorinqlərin nəticələri əsasında müqayisə etməyə çalışacağıq.

## 1. Neft-qaz gəlirlərinin sosial gərginliyə təsiri ilə bağlı araşdırmalar və beynəlxalq təcrübə

Neft-qaz gəlirlərinin sosial gərginliyə təsiri ilə bağlı araşdırmalar bugünədək daha çox Afrika qitəsinin neft-qaz və ya qiymətli daşlarla zəngin ölkələrində baş verən sosial konfliktlərə və vətəndaş müharibələrinə fokuslanmışdır. Çünki məhz adıçəkilən regionda bu tip konfliktlərə daha sıx rast gəlinmişdir. İlkin mülahizə ondan ibarət olmuşdur ki, etnik, dini və tayfa əsaslı bölümün geniş müşahidə olunduğu resursla zəngin Afrika cəmiyyətlərində konfliktlərin əsas səbəbi bölgədə kolonializm dövründən maraqları olan iri dövlətlərin resurs savaşı və manipulyasiyalarıdır. Lakin "soyuq müharibə" qurtardıqdan və təbii resurs hasilatının azalmasından sonra da bu konfliktlərin səngiməməsi xüsusi maraq doğurur.

Təbii resurslarla sosial konfliktlərin əlaqəliliyinin ən məşhur araşdırmaçılarından biri də ABŞ-ın Kaliforniya-Berkeley Universitetinin professoru ***Michael Ross***dur. O özünün 15 avqust 2003-cü il tarixində yayımlanan "Təbii resurslar və vətəndaş müharibəsi: ümumi xülasə" adlı (*Natural Resources and Civil War: An Overview*) tədqiqat işində haqlı olaraq qeyd edir ki, təbii resurslar sosial konfliktlərin yeganə səbəbi ola bilməz. Hər bir konflikt özündə müxtəlif səpgili səbəblərin toplusunu birləşdirir: *yoxsulluq, etnik və ya dini narazılıqlar, qeyri-səmərəli idarəçilik yürüdən hökumət və s*. Təbii resurslarla zənginlik və ya bu resurslardan gələn gəlirlərin düzgün bölüşdürülməməsi isə konfliktlərin başlanmasını sürətləndirə və ya artıq başlamış konfliktlərin həllini daha da mürəkkəbləşdirə bilər. Həm də onu nəzərə almalıyıq ki, təbii resurslarla zənginlik sosial gərginliyi heç də qaçılmaz etmir və bu gərginliyin son həddi olan vətəndaş müharibələri nadir təsadüf edilən hadisələrdir. Yəni hökumətlər və rejimlər, adətən, bu sosial riskləri görürlər və öz bacardıqları metodlarla onları neytrallaşdırmağa çalışırlar.

Təbii resurslardan istifadə və sosial konfliktlər arasındakı əlaqə (həm konfliktlərin başlanmasına və həm də müddətinə təsir) ilə bağlı digər nəzəriyyə ***Collier–Hoeffler modeli***nə əsaslanır. Bu iki məşhur alim bir sıra faktorları test etdikdən sonra onlardan üçünün resurs ölkələri üçün önəmli olduğu qənaətinə gəlmişlər: adambaşına düşən gəlir (ÜDM), iqtisadi artım faizi, ixracda xammalın payı. Adambaşına düşən milli gəlirin iki dəfə artması vətəndaş qarşıdurması riskini təqribən ***50%*** azaldır. Hər bir əlavə iqtisadi artım faizi isə vətəndaş qarşıdurması riskini ***1%*** azaldır. İlkin xammal ixracından asılılığın effekti birbaşa xətti

xarakter daşımır və xammal ixracının ÜDM-dəki payının 30% ətrafında olması artıq pik səviyyə hesab edilə bilər. Xammal ixracının ÜDM-dəki payının 25%-i keçməsi ölkədə konflikt riskini adi hala nisbətən ***33%*** artırır. Ancaq o zaman ki həmin xammal ixracının ÜDM-dəki payı 10% ətrafında olur, risk 11%-ə düşür. Digər bir hesablama göstərirdi ki, xammal ixracının ÜDM-dəki payı 32% həddinə çatanda vətəndaş qarşıdurması riski adi haldakı 1% ehtimaldan 22%-ə çata bilir.

Resursla zəngin ölkələrdə cəmiyyətin etnik və dini tərkibi də sosial gərginliyin yarnması tezliyi baxımından mühüm rol oynayır. *Collier və Hoefflerin* hesablamalarına əsasən, əgər ən böyük etnik qrup ölkə əhalisinin 45-90%-ni təşkil edirsə (etnik dominantlıq), belə cəmiyyətdə sosial konflikt riski ***33%*** yüksək olur. Etnik və dini rəngarənglik, həmin müəlliflərin fikrincə, “üsyan əhvali-ruhiyyəsi”ni azalda bilir. Eyni zamanda, bir dəfə ciddi vətəndaş qarşıdurması yaşanan ölkədə hadisələrin təkrarlanması ehtimalı daha yüksək olur. Əgər sosial narazılıq və gərginlik qiyam həddinə gəlib çatırsa, bu halda qiyamçıların maliyyələşməsi məsələsi ortaya çıxır. Çünki bu işlər bahalı işlərdir. “Soyuq müharibə”nin sonlarına qədər müxtəlif resurs ölkələrindəki üsyançı qruplar iri supergüclər və ya onların regional səlahiyyətliləri tərəfindən maliyyələşdirilirdi. Daha sonrakı dövrdə isə həmin qruplaşmalar alternativ maliyyə axını axtarı-şına başladılar və onların zorakılıq törətmə gücü maliyyələşmədən birbaşa asılıdır. Həm də artıq onların qarşısında getdikcə hərbi xərclərini artıran və hərbi təchizatını təkmilləşdirən hökumətlər dayanırdı. Regional konflikt zonasında yerləşən ölkələr təbii resurslardan asılı iqtisadiyyata malik olub-olmamalarından asılı olmayaraq, hərbi xərclərini nəyin bahasına olur-olsun yüksək həddə saxlamağa meyillidirlər (*biz bu məsələyə yenidən qayıdacağıq*).

***Collier və Bannonun fikrincə isə, yeni təbii sərvət yataqlarının kəşfi və ya artıq kəşf edilmiş yataqların sürətli istismarı da aşağı gəlirli ölkələrdə konflikt riskini artırır (xüsusən bu təbii sərvət neftdirsə).*** Əgər təbii sərvətlərin hasil edildiyi regionda etnik azlıqlar yaşayarsa, belə olan halda onlar tez-tez həmin resursların istismarından gələn gəlirlərin bölüşdürülməsində iştirak etmək istəyirlər və öz haqlarının silahlı müdafiəsinə meyilli olurlar. Bütün bu proseslər ölkənin digər ərazilərindəki separatçı hərəkatları da canlandıra və onlar etnik/dini əsasları bəhanə edərək öz istəklərini reallaşdırmağa başlaya bilərlər. Resurs ölkəsindəki ədalətsiz sosial siyasət, zəif idarəçilik, mülkiyyət hüquqlarının tez-tez pozulması (bax: Qrafik 1) və korrupsiya da separatçı tendensiyaları gücləndirə bilər.

*Qrafik 1*

*Azərbaycanda mülkiyyət əleyhinə olan cinayətlərin dinamikası*




*Statistik mənbə:*
*http://www.mia.gov.az/index.php?/az/content/29703/*

*Collier, Hoeffler və Söderbomun* birlikdə 2001-ci ildə yayımlanan tədqiqatında isə göstə-rilirdi ki, ***sosial konfliktlərin gözlənilən uzunmüddətliliyi 2000-ci ildən sonrakı dövrdə 1980-ci illərə nisbətən iki dəfədən çox artıb.*** Bəzən də konfliktlər sosial və istehsal infrastrukturu elə dağıdır ki, artıq ölkə istər-istəməz konfliktdən əvvəlki dövrdən daha çox neft-qaz gəlirlərindən asılı hala düşür. *Collier* həmçinin təbii resurs üzərindəki rentanın konfliktlərə necə səbəbiyyət verdiyini də aydınlaşdırmağa çalışır və *5 mühüm səbəbi* qeyd edir: (i) təbii resursların kəskin qiymət dəyişikliyi iqtisadi artım templərini tez-tez dəyişir ki, iqtisadi tənəzzül də, öz növbəsində, konflikt riskini artırır; (ii) **hökumətin gəlirlərinin mühüm hissəsi təbii resurslardan gəldiyindən əhalinin vergi yükü o qədər də yüksək olmur və nəticədə hakimiyyətlə əhali arasında bir özgələşmə başlayır**; (ii) əhalinin hökuməti hesabatlı olmağa vadar etməməsi hökuməti və bütövlükdə ölkəni nəhəng korrupsiya məngənəsinə salır ki, bu məngənədə sıxılan biznes dairələri və sosial qruplar hökumətlə konfliktə başlayırlar; (iv) təbii resurslardan istifadə ölkə daxilində regional disbalansı artırır və sonda, xüsusən resursların yerləşdiyi regionun əhalisi ilə sosial konflikt başlayır; (v) nəhayət, təbii resurslardan gələn gəlirlər bu və ya digər kanalla qiyamçı hərəkatları iştahlandırır və

onlar yeni silahlı münaqişənin əsasını qoyurlar. Paul Collier ölkədəki vətəndaş qarşıdurmasının əsas zərəri (“xərci”) kimi həmin dövrdə *iqtisadi artımın azalmasını* göstərir. Həmin vətəndaş qarşıdurmasının davam etdiyi hər il iqtisadi artım tempi orta hesabla ***2,2%*** azalır. Orta hesabla hər bir vətəndaş müharibəsinin 7 il uzandığını nəzərə alsaq , bu o deməkdir ki, konfliktin sonunda iqtisadiyyat əvvəlki vəziyyətindən 15% aşağıda olacaq.

*Collier və Hoeffler* konfliktdən sonrakı onillikdə iqtisadi artımı da tədqiq etmişlər. Həmin dekadanın sonuna iqtisadiyyat öz əvvəlki vəziyyətinə nisbətən çatmış olur. İqtisadiyyat həmin müddət ərzində hər il orta göstəricini ***1,13%*** üstələyir. Bu o deməkdir ki, orta hesabla 7 il davam edən konfliktin başlanmasından 21 il sonra ÜDM konfliktdən əvvəlki səviyyəsinə çatır. Birbaşa olaraq rifaha xidmət etməyən, ancaq qazanılmış rifahı qorumağa xidmət edən xərclərdən sayılan hərbi xərclərdə vətəndaş qarşıdurmasından sonrakı dövrdə artım tendensiyası özünü göstərir. Bunun özü də iqtisadi artımı ləngidən faktor sayıla bilər. Vətəndaş müharibəsi dövründə hərbi xərclər orta hesabla ÜDM-in 1,8%-i həddində artır, postkonflikt dövrünün ilk dekadasında isə bu göstərici yalnız 0,5%-lik maksimal azalmaya məruz qala bilər. Hər bir ölkənin hərbi xərclərinə qonşu ölkələrin hərbi xərclərinin səviyyəsi də ciddi təsir göstərir.

*Qrafik 2*

*Hərbi xərclərin ÜDM-də payı (2010,%-lə)*




*Mənbə: http://www.ng.ru/cis/2010-03-17/1_military.html*

Həmin tədqiqatçılar müəyyən etdilər ki, vətəndaş qarşıdurması ölkənin sosial-iqtisadi və humanitar vəziyyətini gərginləşdirməklə yanaşı, qonşu ölkələrin də iqtisadiyyatlarına öz neqativ təsirini göstərir (iqtisadi artım tempinin orta hesabla ***0,9%*** azalması).

Oxford Universitetinin Resursla Zəngin İqtisadiyyatların Təhlili Mərkəzində (OxCarre) ***Brunnschweiler*** və ***Bulten***in 2009-cu ilin yanvarında açıqlanan tədqiqat nəticələri isə əvvəlki tədqiqatlardan tam fərqli olmuşdur. "Resursla zənginlik" (*resource abundance*) və "resurs asılılığı" (*resource dependence*) anlayışlarını bir-birindən ayıran müəlliflərin fikrincə, vətəndaş qarşıdurması təbii resurs hasilatından asılılığı artırır. Ancaq eyni zamanda, resursla zənginlik konfliktin başlanması ehtimalını azaldan faktor kimi qarşıya çıxır. Resurs asılılığının ölçülməsi-nin ənənəvi metodlarını (xammal eksportunun ÜDM-dəki payı və s.) tənqid edən müəlliflər, təbii resurs faktorunun ümumiyyətlə sülhə və inkişafa maneə kimi nəzərdən keçirilməsinin də əleyhinədirlər. Resurs ölkəsinin müharibə və sülh tarixi də resurs asılılığının konfliktlərə təkan verməsinin öyrənilməsində nəzərə alınmalıdır. Tədqiqatda resurs zənginliyi ilə vətəndaş qarşı-durmasının arasında neqativ əks əlaqə tapılmışdır ki, bunun da əsas səbəbi "gəlir effekti"dir. Müəlliflər hesab edirlər ki, təbii resursla zəngin ölkələr vətəndaş qarşıdurmasına başlamağa daha az meyilli olurlar. Ancaq ciddi sosial gərginliyi yenicə bitirmiş ölkələrdə əksinə, xammal asılılığını daha da artırırlar. Resurs zənginliyinin gəlir və xammal asılılığını artırmasına qədər (1-ci faza), eyni zamanda, gəlir və xammal asılılığının isə neqativ nəticələrinin ortaya çıxmasına qədər (2-ci faza) resurs zənginliyinin kiçikmiqyaslı sosial zorakılıqlara təsiri birmənalı deyil. Resurs zənginliyi bütün səviyyələrdə konfliktlərin yaranması riskini yüksək gəlir effekti sayəsində ***0,46%*** azaldır, resurs asılılığını artırması tendensiyası hesabına isə konflikt riskini ***0,38%*** artırır. Ümumiləşdirdikdə, resurs zənginliyi konflikt ehtimalını azaldır və geniş mənada konfliktlər üçün aparıcı determinant kimi çıxış etmir.

***Deacon və Bohn*** (1999) məsələyə siyasi qeyri-stabilliyin təbii resurs hasilatı ilə əlaqəsi prizmasından yanaşırlar. Konfliktlər yeni hasilat dalğası üçün təkanverici və ya maneə rolunu oynaya bilər. Buraya mülkiyyət hüquqlarının resurs ölkələrində tədricən pisləşməsinin gətirdiyi neqativ fəsadları da əlavə etmək lazımdır ki, sosial-iqtisadi mənzərə tamamlansın.

***Frederick van der Ploeg və Dominic Rohner***in ən son (mart, 2010 tarixli) "Müharibə və təbii resursların istismarı" adlı ("War and natural resource exploitation") tədqiqatında siyasi rejimlərin hakimiyyətdə

qalma müddətlərini də bir dəyişən kimi qəbul edib təhlil edirlər. Məlum olur ki, resursla zəngin və konfliktli ölkə məhz neft ölkəsidirsə, siyasi rejimlər hakimiyyətdə daha uzun müddətdə qalmağa meyillidirlər. Bu işdə onların ən mühüm dəstəkçisi milli neft şirkətidir. Həmçinin siyasi rejimin hakimiyyətdə qalma müddətinə mütənasib olaraq ilk dövrlərdə neft hasilatının piki yaşansa da, daha sonradan getdikcə azalma qaçılmazdır. Göründüyü kimi, bu tədqiqatda əsas hasilatçının dövlət şirkəti, yoxsa özəl şirkət olmasının önəmi xüsusi vurğulanır. Sosial konflikt tərəfləri arasındakı güc nisbəti nə qədər simmetrik paylanıbsa, konfliktin ömrü bir o qədər uzun olur.

<u>*Qrafik 3*</u>

*Siyasi rejimin ömrü və neft hasilatı*




*Mənbə: Ploeg & Rohner (2010)*

***Timothy Besley və Torsten Persson***un 2009-cu ilin dekabrında yayımlanan “Siyasi zorakılığın məntiqi” (*Logic of Political Vioelence*) tədqiqatında cəmiyyətlərdəki (xüsusən resursla zəngin iqtisadiyyatı olan) siyasi zorakılıq öncə institusional zəifliyin əlaməti kimi təhlil edilir. 1950-ci ildən dövrümüzə qədər dünya üzrə vətəndaş qarşıdurmalarının sayı hər il orta hesabla ***10%*** artmışdır, 1990-cı illərin əvvəlində bu göstərici öz pikinə çatmışdır – hər il ***15%*** artım. Əsasən yoxsul ölkələrdə baş verən bu konfliktlərdə ölənlərin ümumi sayı 20 milyon nəfəri ötmüşdür. Müəlliflər siyasi zorakılığın iki növünü bir-birindən ayırırlar: *(i) birtərəfli*

*zorakılıq – hökumətin repressiyaları və insan hüququ pozuntuları; (ii) ikitərəfli zorakılıq – vətəndaş müharibəsi.* Adətən, birinci ikinciyə keçid xarakteri daşıyır və siyasi təmizləmələrlə müşayiət olunur. Təhlillər göstərdi ki, siyasi zorakılığın hər iki növünün qarşısını nisbətən alan amillər yüksək əməkhaqları, cəmiyyətin mənafeyində olan xüsusi sahələrə xərcləmələrin artırılması, yüksək təmsilçilik və demokratik nəzarət vəd edən institutların işləməsidir. Təbii resurslardan əldə edilən yüksək renta və xarici yardımlar isə əksinə, siyasi zorakılığa təkan verir. Siyasi zorakılıqla iqtisadi rifah arasında birmənalı əlaqə var. Daimi sülh içərisində olan ölkələrin adambaşına düşən ÜDM-i orta hesabla ***4365 $-dır***, siyasi repressiyaların yaşandığı ölkələrin adambaşına düşən ÜDM-i orta hesabla ***2503 $-dır***, vətəndaş müharibələri olan ölkələrin adambaşına düşən ÜDM-i orta hesabla ***1789 $-dır***. Tədqiqatda o da göstərilir ki, resursla zəngin ölkələrdə xammalın ixrac qiymətlərinin 1% normal haldan kənarlaşması siyasi zorakılıq və vətəndaş müharibəsi riskini ***5-6%*** artırır. Bununla eyni vaxtda təbii fəlakət baş verərsə, siyasi zorakılıq və vətəndaş müharibəsi riski ***2,5-3%*** arta bilər. Artan siyasi repressiya və vətəndaş qarşıdurması riskini azalda bilən mühüm faktorlardan biri müvafiq ölkənin beynəlxalq statusunda (məsələn, BMT-nin Təhlükəsizlik Şurasına daimi olmayan üzvlük) və məcburi hüquqi öhdəliklərində baş verə biləcək dəyişiklikdir.

***Mehlum, Moene*** və ***Torvik***in (2006) tədqiqatlarında təbii resursların səmərəsiz istifadəsində və bunun neqativ fəsadlarında əsas faktor kimi resurs ölkəsinin institusional keyfiyyəti əsas götürülür. Onlar dövlət və daha çox özəl sektor institutlarını soyğunçuluğa və mənimsəməyə meyilli institutlar (*grabber – friendly*), yeniliklər yaratmağa meyilli institutlar olaraq (*producer friendly*) iki kateqoriyaya bölürlər. Birincilər daha korrupsiyaya, qeyri-leqal gəlir (*rent-seeking*) əldə etməyə, cinayətkarlığa və hətta silahlı münaqişələrdən mənfəət götürməyə meyilli olaraq cəmiyyətin sosial-iqtisadi stabilliyini getdikcə kövrəkləşdirirlər. Bununla bərabər ***Robinson, Torvik*** və ***Verdier***in (2006) birgə tədqiqatında isə əsas neqativ faktor kimi dövlət institutlarının siyasi patronajlıq arayışları vurğulanır.

Kolumbiya Universitetindən ***Macartan Humphreys*** "Təbii resurslar, konflikt və konfliktlərin həlli: mexanizmlərin açılışı" *(Natural Resources, Conflict, and Conflict Resolution: Uncovering the Mechanisms, 2005)* adlı tədqiqatında təbii resursların konfliktlərə mümkün təsir mexanizmlərinin hamısını detallı şəkildə təhlil edərək aşağıdakı nəticələrə gəlir: *(a) konfliktlərin başlanması daha çox keçmişdəki resurs hasilatı ilə bağlıdır, nəinki gələcəkdəki istehsal potensialı ilə; (b) təbii*

*resursların sosial konflikt formalaşdırma gücü "üsyançıların-narazıların qətiyyəti" ilə yox, "dövlətin zəifliyi" ilə şərtlənir; (c) təbii resursla zəngin ölkələrdə konfliktlərin yaranması ölkənin kənd təsərrüfatı sektorundan asılılıq səviyyəsi ilə də əlaqəlidir, belə ki, industriallaşma etnik, dini, sosial inteqrasiyanı gücləndirməklə lokallaşmış konflikt ehtimalını azaldır; (ç) təbii resurslarla bağlı konfliktlər daha qısamüddətli olur və əgər problemin kəskinliyi vətəndaş müharibəsinə qədər yüksəlirsə, bu, mütləq tərəflərdən birinin silahlı qələbəsi ilə nəticələnir, nəinki hər hansı bir qeyri-müəyyən sülh razılaşması ilə; (d) ölkənin təbii resursla zəngin olması və xammaldan asılı vəziyyəti xarici dövlətləri və korporasiyaları həmin ölkədə mülki konfliktlər başlamağa təşviq edə bilər.*

Harvard Universitetinin keçmiş tədqiqat proqramı rəhbəri ***Brenda Shaffer***in 2009-cu ildə çapdan çıxan "Enerji siyasəti" (*Energy Politics*) əsərində enerji daşıyıcılarının istismarı və nəqli nəinki ölkədaxili gərginliklər üçün, hətta ölkələrarası və regional konfliktlər üçün də ciddi hədə-dir. Müəllif burada əsas mexanizmlər kimi neft-qaz kəmərlərinin özü ilə bərabər həm sülh, həm də müharibə ehtimalı gətirməsini xüsusilə vurğulayır. O, hətta belə bir iddia edir ki, Azərbaycan–Ermənistan, Hindistan–Pakistan, İsrail–Ərəb dünyası qarşıdurmalarını da zamanında "sülh kəmərləri" (*peace pipelines*) vasitəsilə çözmək mümkün idi. Enerji resursları ölkələr arasında sərhədlərin delimitasiyasını da çətinləşdirir. Bu problem həm Körfəz ölkələri arasında (İran–Qətər, İran–Birləşmiş Ərəb Əmirlikləri), həm Cənubi Çin dənizində (Çin–Vyetnam–Filippin arasında), həm Xəzər dənizində (İran–Azərbaycan, Türkmənistan–Azərbaycan), həm də Şimal qütbündə Arktik Zona (*Arctic Circle*) ilə həmsərhəd ölkələr (Rusiya, Kanada, ABŞ, Norveç və Danimarka) arasında ciddi gərginliklərə səbəb olmuşdur.

***Philippe Le Billion***un məşhur "Qaynar müharibələr: təbii resurslar və silahlı konfliktlər" (*Fuelling war: natural resources and armed conflict*) tədqiqatında qeyd edilir ki, təbii resurslarla sosial gərginliyin ifadəsi olan aktlar (separatçılıq, kütləvi aksiyalar, qiyam, dövlət çevrilişi və s.) arasındakı güclü əlaqəni şərtləndirən əsas faktorlar bunlardır: *təbii resursların növü və yayılması arealı, həmin arealdakı həssas əhali qruplarının resurs gəlirlərinin ədalətli bölgüsü ilə bağlı qavrayışı, biznes sektorunun korporativ məsuliyyəti və siyasi məsələlərə olan münasibəti, iqtisadiyyatın real olaraq çeşidləndirilməsi səviyyəsi, resursların sosial gərginlik yarada bilən qrupların əlinə keçməsi ehtimalı, beynəlxalq təşkilatların təbii resursların dövriyyəsinə nəzarətini nəzərdə tutan təşəbbüslərinin ("Kimberley prosesi" kimi) keyfiyyəti*.

Cədvəl 1

*Sosial gərginlik yaradan üsyançı qüvvələrin təbii resursları əldəetmə ehtimalı*

| *Təbii resurs növü* | *İstismarı* | *Oğurlanması* | *Qəsb edilməsi (extor-tion)* | *Qiymət ranqı ($/Kg)* |
|---|---|---|---|---|
| *Qiymətli daşlar və minerallar* | *Y* | *Y* | *Y* | *20-500,000* |
| *Meşə materialları* | *O* | *O* | *Y* | *0,1* |
| *Kənd təsərrüfatı məhsulları* | *O* | *O* | *O* | *1,5 (kofe)* |
| *Kimberlit almazı* | *A* | *O* | *O* | *500,000* |
| *Dərin mədən mineralları* | *A* | *A* | *O* | *2 (mis)* |
| *Quru yataqlarındakı neft* | *A* | *O* | *Y* | *0,12* |
| *Dəniz yataqlarındakı neft* | *A* | *A* | *A* | *0,12* |

*Y (Yüksək); O (Orta); A (Aşağı);*

Bütün deyilənləri ümumiləşdirsək, təbii resursların (xüsusən də neft və qazın) niyə sosial gərginliyə səbəbiyyət verdiyinə təqribi cavab tapa bilərik:

(i) İnstitusional zəiflik və mənəvi deqradasiya mühiti fonunda təbii resursların istismarından gələn yüksək gəlir hakim rejimin və onun patronajlığı altında olan dairələrin güclənməsinə yönəlməklə *cəmiyyətdə sosial bərabərsizliyi və repressiyaları* artırır. Bu isə xüsusən həssas sosial qrupları və "özünü oyundan kənarda hesab edən" bəzi siyasi qrupları daha da aqressivləşdirir. Nəticədə onlar ya öz məhdud imkanları hesabına, ya da bəzi hallarda xaricdən dəstəklənərək hakimiyyətlə açıq toqquşmalara girirlər.

(ii) Yeni kəşf olunan yataqlarda və hələ istismara cəlb olunmamış rezervlərin hasilatında (və ya neft-qaz kəmərlərinin istədikləri marşrutla çəkilməsində) iştirak edərək öz xeyrini artırmaq istəyən *iri şirkətlər və onların lobbiçilik fəaliyyətini yürüdən siyasi dairələr* resursla zəngin ölkənin daxilindəki daha radikal və müxtəlif səbəblərdən siyasi hakimiyyətdən incik düşən siyasi, etnik, dini qruplarla separat

danışıqlara girib, onların vasitəsilə qısa və ortamüddətli dövrdə ölkədəki vəziyyəti gərginləşdirmək və bununla da həmin hökumətdən istədikləri güzəşti almaq istəyirlər.

(iii) Resursla zəngin ölkə neft-qaz hasilatının əsas bumunu ("*Hubbert piki*") geridə qoyub *hasilatın və neft-qaz gəlirlərinin tənəzzülü* fazasına keçdikcə yüksək gəlir səviyyəsinə öyrəşmiş sosial-iqtisadi mühit vəsait qıtlığına neqativ reaksiya verərək xüsusilə xarici borcun artması, mülkiyyət hüquqlarının pozulması və yoxsulluğun dərinləşməsi şəraitində yeni sosial gərginlik ocaqları formalaşdırır.

## 2. Azərbaycanda neft gəlirlərinin artması fonunda sosial durum

(Sosioloji tədqiqatların nəticələri əsasında)

Artıq bəllidir ki, «resursların lənəti»nin əsas simptomları təbii resursları bol olan və bunun müqabilində böyük gəlirlər əldə edən ölkələrdə iqtisadi inkişafın deformasiyaya məruz qalması, təbəqələşmənin dərinləşməsi və sosial gərginliyin artmasıdır. Bunu ilk mərhələlərdə sadə müşahidə vasitəsilə görmək çətin olsa belə, iqtisadi və siyasi təhlillər aparmaqla və eyni zamanda, sosioloji tədqiqatların köməyi ilə aşkar etmək mümkündür.

2006-2010-cu illərin yanvar-fevral aylarında “Puls-R” Sosioloji Xidməti tərəfindən əhali arasında sosioloji sorğu keçirilmişdir. Sorğuda 1000 nəfərin rəyi öyrənilmişdir. Seçmə üsulu – təsadüfi. Seçim respondentlərin yaşayış yerlərində yaşı 18-dən yuxarı olan vətəndaşlar arasında aparılmışdır. Sorğu Azərbaycanın 15 rayonunda (Lənkəran, Lerik, Siyəzən, Dəvəçi, Şəki, Oğuz, Göygöl, Ağstafa, Samux, Xızı, Neftçala, Tərtər, Ağcabədi, Ağsu, Göyçay) və 12 şəhərində (Bakı, Lənkəran, Liman, Şəki, Gəncə, Ağstafa, Şirvan, Biləsuvar, Bərdə, Yevlax, Zərdab və Kürdəmirdə) keçirilmişdir. Mümkün qədər Azərbaycan Respublikasını xarakterizə edən əsas sosial demoqrafik göstəricilərin (cins, yaş, təhsil, sosial status) proporsional uyğunluğuna riayət olunmuşdur.

Sorğu iştirakçılarının cavablarının təhlili əhalinin əhvali-ruhiyyəsini, müvafiq gözləntilərini, ictimai gərginliyin və sabitliyin dərəcəsini, hakimiyyətə, ictimai qurumlara etimadı, demokratiya və islahatlarla bağlı düşüncələri barədə mühakimə yürütməyə imkan verir.

2006-cı ildə keçirilən sorğuya xüsusi suallar əlavə edilməsi neft gəlirlərinin artması ilə bağlı cəmiyyətin gözləntiləri və vəziyyəti barədə nəticə çıxarmağa imkan verir. Aşağıda 2006, 2007, 2008, 2009 və 2010-cu illərdə keçirilmiş sosioloji monitorinqin sosial gərginliklə bağlı müqayisəli nəticələri (faizlərlə), cədvəlləri və onların şərhləri verilmişdir.

***1. Azərbaycandakı həyat haqqında aşağıda göstərilən ifadələrdən hansı sizin hal-hazırkı hisslərinizi daha düzgün ifadə edir?*** *(2 cavabın seçilməsi mümkün idi)*

| | Yanvar 2006 | Yanvar 2007 | Fevral 2008 | Fevral 2009 | Yanvar 2010 |
|---|---|---|---|---|---|
| | % | % | % | % | % |
| 1. Qorxu | 6,5 | 3,1 | 3.7 | 4,1 | 5,8 |
| 2. Ümid | 59,5 | 58,1 | 59,5 | 56,4 | 50,9 |
| 3. Qeyri-müəyyənlik | 17,4 | 14,8 | 18,2 | 18,3 | 16,4 |
| 4. Əlacsızlıq | 12,2 | 10,8 | 10,0 | 13,9 | 16,7 |
| 5. Əminlik | 34,1 | 38,9 | 34,4 | 35,2 | 42,8 |
| 6. Ümidsizlik | 15,2 | 11,8 | 12,2 | 12,7 | 12,6 |
| 7. Tərəqqi | 5,3 | 10,8 | 11,8 | 11,2 | 15,0 |
| 8. Yuxarıda göstərilənlərin hamısı | 0,7 | 1,0 | 1,9 | 2,6 | 3,1 |
| 9. Yuxarıda göstərilənlərdən heç biri | 0,4 | 0,5 | 0,8 | 0,4 | 0,8 |
| 10. Cavab verməkdə çətinlik çəkir / imtina | 0,6 | 0,8 | 1,3 | 0,1 | 0,1 |

Cavablardan aydın görünür ki, Azərbaycanda mövcud olan həyat barəsində respondentlərin əhvali-ruhiyyəsində müsbət duyğular üstünlük təşkil edir. Əvvəlki illərdə keçirilmiş sorğulardakı kimi, bu dəfə də müsbət düşüncəli olanların sayı mənfi olanların sayından, demək olar ki, iki dəfə çoxdur. Bununla belə, ölkədəki həyatı "əlacsızlıq", "qorxu", "qeyri-müəyyənlik" və "ümidsizlik" terminləri ilə xarakterizə edənlərin sayı bir qədər artmışdır. ***Görünür ki, ölkədə iqtisadi inkişafın kənarında qalan və həyatlarında heç bir ümid yeri görməyən əhalinin ümumi sayının 11-17%-dən ibarət sabit bir qrup formalaşmışdır.***

***2. Yaxın aylarda ölkədə, yaşadığınız bölgədə kütləvi etiraz aksiyaların baş verməsini gözləyirsinizmi?***

| | | | Ölkədə | Yaşadığınız ərazidə |
|---|---|---|---|---|
| Cavab verməkdə çətinlik çəkirəm | 2010 | % | 3,0 | 1,2 |
| | 2009 | | 0,7 | 0,7 |
| | 2008 | | 1,1 | 0,8 |
| | 2007 | | 2,2 | 2,3 |
| | 2006 | | 6,7 | 6,2 |
| Xeyr | 2010 | % | 63,6 | 69,4 |
| | 2009 | | 66,4 | 68,1 |
| | 2008 | | 47,8 | 52,2 |
| | 2007 | | 57,5 | 65,3 |
| | 2006 | | 39,5 | 48,9 |
| Güman etmirəm | 2010 | % | 25,5 | 25,8 |
| | 2009 | | 26,9 | 27,2 |
| | 2008 | | 28,3 | 29,7 |
| | 2007 | | 27,1 | 22,9 |
| | 2006 | | 26,3 | 28,2 |
| Güman edirəm | 2010 | % | 6,1 | 2,7 |
| | 2009 | | 3,8 | 2,6 |
| | 2008 | | 14,7 | 11,0 |
| | 2007 | | 10,9 | 8,4 |
| | 2006 | | 16,6 | 12,4 |
| Bəli | 2010 | % | 1,8 | 0,9 |
| | 2009 | | 2,2 | 1,4 |
| | 2008 | | 8,1 | 6,3 |
| | 2007 | | 2,3 | 1,1 |
| | 2006 | | 10,9 | 4,3 |

Cədvəldən göründüyü kimi, respondentlərin əksəriyyəti yaşadıqları bölgədə və ümumilikdə ölkədə etiraz aksiyalarının baş verəcəyini gözləmir, hətta, keçirilən sosioloji monitorinqin nəticələrinə görə, bu təsəvvür daha da möhkəmlənmişdir.

***3. Yaşadığınız yerdə kütləvi etiraz aksiyaları keçirilərsə, Siz nə edərsiniz?***

| | Yanvar 2006 | Yanvar 2007 | Fevral 2008 | Fevral 2009 | Yanvar 2010 |
|---|---|---|---|---|---|
| | % | % | % | % | % |
| 1. Etiraz edənlərə qoşulardım | 10,6 | 9,0 | 9,7 | 12,3 | 10,2 |
| 2. Bitərəfliyi saxlayardım | 61,5 | 65,0 | 69,5 | 61,9 | 61,2 |
| 3. Qayda-qanunun yaradılmasında hökumətə kömək edərdim | 16,6 | 14,8 | 15,4 | 17,8 | 22,0 |
| 4. Cavab verməkdə çətinlik çəkirəm /cavabdan imtina | 11,3 | 11,2 | 5,4 | 8,0 | 6,6 |
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 |




Sosioloji monitorinqin bütün dövrü üzrə nəticələr göstərir ki, ***kütləvi etiraz aksiyaları baş verəcəyi halda öz evlərində oturmağa üstünlük verənlərin sayı yüksəkdir.*** Fərz olunsa ki, respondentlərin bir qismi ehtiyatlanaraq öz cavabında qeyri-səmimi olub və nəzərə alınsa ki, etiraza meyilli insanların payı qalanlardan 8-9 dəfə azdır, yenə ümumi mənzərə dəyişmir.

***4. Siz özünüzü təhlükəsizlikdə hiss edirsinizmi?***

| | | | Yaşadığınız ərazidə | Şəhərinizdə, rayonunuzda | Ölkədə |
|---|---|---|---|---|---|
| Cavab verməkdə çətinlik çəkirəm | 2010 | % | 0 | 0 | 0,2 |
| | 2009 | | 0,4 | 0,2 | 0,4 |
| | 2008 | | 0,2 | 0,2 | 0,6 |
| | 2007 | | 0,2 | 0,8 | 1,5 |
| | 2006 | | 1,3 | 1,7 | 1,7 |
| Xeyr | 2010 | % | 2,0 | 3,0 | 5,0 |
| | 2009 | | 2,5 | 2,2 | 2,6 |
| | 2008 | | 2,9 | 3,2 | 4,2 |
| | 2007 | | 2,9 | 3,5 | 4,4 |
| | 2006 | | 5,3 | 4,7 | 6,6 |
| Güman etmirəm | 2010 | % | 4,8 | 7,2 | 12,5 |
| | 2009 | | 5,3 | 5,6 | 7,8 |
| | 2008 | | 4,9 | 7,4 | 11,9 |
| | 2007 | | 5,0 | 7,2 | 9,3 |
| | 2006 | | 7,0 | 8,4 | 11,4 |
| Güman edirəm | 2010 | % | 32,0 | 33,4 | 32,3 |
| | 2009 | | 27,2 | 30,7 | 35,2 |
| | 2008 | | 27,5 | 32,4 | 29,9 |
| | 2007 | | 27,0 | 26,5 | 27,6 |
| | 2006 | | 19,6 | 25,2 | 23,2 |
| Bəli | 2010 | % | 61,2 | 56,4 | 50,0 |
| | 2009 | | 64,6 | 61,3 | 54,0 |
| | 2008 | | 64,5 | 56,8 | 53,4 |
| | 2007 | | 64,9 | 62,0 | 57,2 |
| | 2006 | | 66,8 | 60,0 | 57,1 |

Keçirilən sorğuların nəticələrinə görə, respondentlərin əksəriyyəti özünü təhlükəsizlikdə hiss edir. İllər üzrə cavablarda olan dəyişikliklər isə cüzidir və bu cür sosioloji tədqiqatda hesablanan statistik xətanı üstələmir.

### *5. Azərbaycanın gələcəyini necə görürsünüz?*

| | Yanvar 2006 | Yanvar 2007 | Fevral 2008 | Fevral 2009 | Yanvar 2010 |
|---|---|---|---|---|---|
| | % | % | % | % | % |
| 1. Yaxın vaxtlarda ölkədə vəziyyət yaxşılaşacaq | 48,1 | 53,7 | 50,9 | 45,8 | 48,0 |
| 2. Zənn edirəm ki, əhəmiyyətli dəyişikliklər baş verməyəcək | 38,6 | 34,8 | 42,2 | 44,5 | 41,9 |
| 3. Tezliklə vəziyyət pisləşəcək | 9,6 | 8,1 | 4,4 | 8,6 | 6,7 |
| 4. Cavab verməkdə çətinlik çəkirəm /cavabdan imtina | 3,7 | 3,4 | 2,5 | 1,1 | 3,4 |
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 |




Keçirilmiş bütün sorğuların nəticələrinə əsasən, respondentlərin əksəriyyəti optimistdir. Neft gəlirlərinin artdığı və bununla yanaşı iqtisadiyyatın yüksəlməsi dövründə respondentlərin nikbin əhvali-ruhiyyədə olması təbiidir. ***Ancaq neftin və qazın qiymətlərinin kəskin enə bilməsi və təbii resursların gələcəkdə qaçılmaz tükənməsi nəzərə alınsa, optimist gözləntilər və pisləşən reallıqlar arasındakı uçurumun əhalidə dərin məyusluq və cəmiyyətdə gərginik yaradacağını güman etmək olar.***

***6. Öz gələcəyinizi necə görürsünüz?***

| | Yanvar 2006 | Yanvar 2007 | Fevral 2008 | Fevral 2009 | Yanvar 2010 |
|---|---|---|---|---|---|
| | % | % | % | % | % |
| 1. Mənim vəziyyətim, yəqin ki, yaxşılaşacaq | 40,0 | 47,0 | 44,2 | 35,2 | 38,2 |
| 2. Zənn edirəm ki, əhəmiyyətli dəyişikliklər baş verməyəcək | 48,2 | 41,2 | 44,2 | 50,4 | 46,1 |
| 3. Mənim vəziyyətim, yəqin ki, pisləşəcək | 6,2 | 8,1 | 6,9 | 11,7 | 12,0 |
| 4. Cavab verməkdə çətinlik çəkirəm /cavabdan imtina | 5,6 | 3,7 | 4,7 | 2,7 | 3,7 |
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 |




Cavablardan göründüyü kimi, respondentlər öz gələcəklərini qiymətləndirərkən, bundan əvvəlki ölkə ilə bağlı sualın cavablarından fərqli olaraq, daha ehtiyatlı və realistik mövqe tuturlar. Respondentlərin təxminən yarısı hesab edir ki, onların vəziyyətində əhəmiyyətli dəyişikliklər baş verməyəcək. Optimistlərin sayı təqribən üçdə bir hissəni təşkil edir. ***Vəziyyətlərinin pisləşəcəyini zənn edənlərin sayının artımı da diqqəti cəlb edir.*** Görünür ki, dünyada baş verən iqtisadi böhran təkcə ölkəyə yox, ayrıca şəxslərə də təsir göstərir.

***7. Aşağıdakı ifadələrdən hansı Azərbaycanda neft gəlirləri və onların xərclənməsi üzrə Sizin rəyinizi daha düzgün əks etdirir?***

| | | % |
|---|---|---|
| 1 | Neft gəlirləri mövcud problemlərin çoxunun həllində Azərbaycanın inkişafına yardım göstərəcək | 43,5 |
| 2 | Neft gəlirləri, mümkündür ki, ölkənin inkişafını sürətləndirəcək, amma mənim rifahımda əks olunmayacaq və bunun ailəmə təsir göstərəcəyinə ümid etmirəm | 38,9 |
| 3 | Ölkə və özüm üçün neft gəlirlərindən heç bir xeyir gözləmirəm | 14,4 |
| 4 | Cavablandırmaq çətindir/cavabdan imtina | 3,2 |
| | Cəmi | 100 |




Cavabların paylanmasından görünür ki, neft gəlirlərindən özü və ölkə üçün heç bir xeyir gözləməyən cüzi azlıq (14,4 faiz) tam bədbinlik nümayiş etdirib. Qalan respondentlər isə təqribən iki bərabər qrupa bölünürlər. Birinci qrupdakılar hesab edirlər ki, neft gəlirləri ölkənin inkişafına və onların şəxsi rifahının yüksəlməsinə yardım göstərəcək, o biri qrupdakılar isə neft gəlirlərinin ölkə üçün xeyirli olacağını istisna etmirlər, amma özləri üçün heç bir dividend gözləmirlər. ***Beləliklə,***

***ictimai rəy neft kontraktlarının başlandığı dövr üçün səciyyəvi olan bütün problemlərin (Qarabağ, işsizlik, rifahın yüksəlməsi və s.) həllini bu kontraktlara bağlayan bir çox yanlış gözləntilərdən azad oldu.*** İnsanların əksəriyyəti xülyalara və boş ümidlərə qapılmadan artan neft gəlirlərinin ölkə üçün əhəmiyyətini dərk edir.

***8. Neft gəlirlərinin hansı prioritet istiqamətlərini dəstəkləməyə hazırsınız?***

| | | % |
|---|---|---|
| 1 | Erməni işğalında olan torpaqların geri qaytarılması məqsədilə ordunun möhkəmləndirilməsi | 70,2 |
| 2 | İş yerlərinin yaradılması | 65,1 |
| 3 | Yolların və körpülərin inşası və təmiri, su, qaz, istilik və elektrik enerjisi təmininin yaxşılaşması | 18,0 |
| 4 | Kütləvi tələbat mallarının əlçatanlığının təmini məqsədilə onlara maddi kömək göstərilməsi | 19,5 |
| 5 | Kiçik və orta biznesə aşağı faizli kreditlərin verilməsi | 24,4 |
| 6 | Kənd təsərrüfatı istehsalçılarına aşağı faizli kreditlərin verilməsi | 28,1 |
| 7 | Təqaüdlər, əlillər və çoxuşaqlı ailələr üçün müavinətlərin yüksəldilməsi | 35,9 |
| 8 | Əhali üçün əlçatan olan mənzillərin inşası və kreditləşdirilməsi | 20,0 |
| 9 | Ekoloji problemlərin həlli | 7,6 |
| 10 | Təhsilin inkişafı | 23,0 |
| 11 | Səhiyyənin inkişafı | 20,2 |
| 12 | Mədəniyyətin inkişafı | 6,0 |
| 13 | Neft gəlirlərinin bir hissəsinin əhaliyə birbaşa ödənilməsi | 39,3 |
| 14 | Digər cavablar | 0,7 |
| 15 | Cavablandırmaq çətindir/cavabdan imtina | 0,5 |

Respondentlərin bu suala verdiyi cavablar ölkə üçün prioritet olan problemləri aydınlaşdıran əvvəlki suala tam uyğundur. ***Respondentlərin mütləq əksəriyyəti (70 faizdən çox) işğal altındakı torpaqların geri qaytarılması məqsədilə ordunun möhkəmləndirilməsi üzrə tədbirlərə neft gəlirlərindən vəsaitin yönəldilməsinin tərəfdarıdır.*** Sonrakı yerdə isə iş yerlərinin yaradılması, yəni işsizlik probleminin

həlli dayanır. Təqaüd və müavinətlərin yüksəldilməsi və neft gəlirlərinin bir hissəsinin əhaliyə birbaşa ödənilməsi yoxsulluğun azaldılması kontekstində baxıla bilər. Birbaşa ödənişlər ideyası sanki böyük dəstək almalı idi. Amma hökumətin əmanət kassalarındakı qiymətdən düşmüş əmanətlərin kompensasiyasını ləngitdiyini görən insanlar bizim şəraitdə pulların birbaşa paylanmasının reallığına sadəcə inanmırlar. Kütləvi tələbat malları üzrə aşağı qiymətlərin saxlanılması məqsədilə onların qeyri-bazar subsidiyalaşmasının tərəfdarı olan şəxslərin sayı gölənilərdən daha az olmuşdu. Daha çox sayda respondent isə kiçik və orta biznesin, həmçinin fermerliyin kreditləşdirilməsi ideyasını (cəmi 50 faizdən çox) dəstəkləmişdi.

Ebert Fondunun dəstəyilə 2008-ci ildə keçirilən ekspert sorğusunun iştirakçıları eyni suala bir qədər fərqli yanaşmışlar. Bu sorğuda 100 nəfər, o cümlədən Milli Məclisin üzvləri, QHT rəhbərləri, KİV redaktorları və şərhçiləri, universitet müəllimləri, MEA əməkdaşları, biznesmenlər iştirak etmişlər. Neft gəlirlərini xərcləmə prioritetləri arasında onlar birinci yerə təhsil, ikinciyə kiçik və orta biznesə dəstək, üçüncü yerə aqrar sahənin maliyyələşdirməsini qoymuşdular. Neft gəlirlərinin tez tükəndiyini bilərək onlar əhaliyə toplanan vəsaitlərdən bilavasitə pay ayırmasına qarşı olaraq, bunun əvəzinə sovet dövründə toplanan və batan əmanətlərin bərpasını zəruri hesab etmişlər.

***9. Ölkəyə axını gözlənilən iri neft gəlirlərinin hansı mənfi nəticələri ola bilər?***

| | | % |
|---|---|---|
| 1 | Korrupsiya güclənəcək | 31,3 |
| 2 | İslahatlar ləngiyəcək, çünki asan yolla əldə olunan pullar düşünmək və fəaliyyət göstərmək zərurətini aradan qaldırır | 11,3 |
| 3 | Hakimiyyətin avtoritarizmi güclənəcək, çünki nəinki güc, həmçinin böyük maliyyə ehtiyatları onun əlində cəmləşəcək | 8,9 |
| 4 | Ölkənin qeyri-barabər inkişafı güclənəcək, Bakı tərəqqi edəcək, əyalətlər isə geridə qalacaq | 8,5 |
| 5 | Yoxsullar və varlılar arasında təbəqələşmə artacaq | 17,3 |
| 6 | Qiymətlər yüksələcək, inflyasiya artacaq | 0,7 |
| 7 | Heç bir mənfi nəticə olmayacaq | 19,3 |
| 8 | Cavablandırmaq çətindir/cavabdan imtina | 19,3 |
| | Cəmi | 100 |




Bu sual respondentlər üçün xeyli mürəkkəb olmuşdu və onların təxminən beşdə biri sualı cavablandırmaqda çətinlik çəkmişdi. Artan neft gəlirlərinin inflyasiya təzyiqi mütəxəssislər üçün aksiomdur və bunu gözləyənlərin sayı cüzi olmuşdur. ***Sorğu iştirakçıları mümkün olan mənfi nəticələr sırasında birinci yerə korrupsiyanı və yoxsullar və varlılar arasında təbəqələşmənin dərinləşməsini qoymuşdular.*** Burada çox sadə məntiq var. Ölkəyə əlavə gəlirlər axdıqca həmin gəlirləri mənimsəmək istəyənlərin sayı artacaq və bunlar azlıq təşkil etdiyinə görə təbəqələşmə güclənəcək. Respondentlər eləcə də islahatların ləngiməsini və hakimiyyətin avtoritarizminin güclənməsini qabaqcadan görürlər.

Yuxarıda göstərilən 2008-ci ildə keçirilən ekspert sorğusunun iştirakçıları artan neft gəlirlərinin mənfi fəsadları ilə bağlı daha konkret fikirlər söyləmişlər. Bunların arasında birinci növbədə infrastruktur layihələrin qiymətlərinin şişirdilməsini və korrupsiyanı, sonra inflyasiya, manatın məzənnəsinin süni artımı və yerli istehsalın rəqabət gücünün azalması, islahatların  ləngiməsini qeyd etmək olar.

***10. Siz ölkədəki vəziyyətin yaxşılaşacağını güman edirsinizsə, bunu neft gəlirlərinin daxil olması və onlardan səmərəli istifadə edilməsi ilə hansı dərəcədə əlaqələndirirsiniz? (Sual əhəmiyyətli dəyişikliklərin baş verməyəcəyini və vəziyyətin pisləşəcəyi ehtimalını qeyd etmiş respondentlərə verilməmişdi).***

| | | % |
|---|---|---|
| 1 | Bu, həlledici əhəmiyyətə malikdir | 54,3 |
| 2 | Bu, digər amillərlə bir sırada əhəmiyyətlidir | 57,3 |
| 3 | İxtiyari halda vəziyyət yaxşılaşacaqdır | 12,6 |
| 4 | Cavablandırmaq çətindir/cavabdan imtina | 8,8 |
| | Cəmi | 100 |




Cavabların paylanmasından görünür ki, ***ölkədəki vəziyyətin yaxşılaşacağını gözləyən respondentlərin əksəriyyəti bunu neft gəlirlərinin artımı ilə birbaşa bağlayır.*** Amma onlar sorğu iştirakçılarının ümumi sayının dörddə birindən də az hissəsini təşkil ediblər. Respondentlərin bundan bir qədər çox faizi öz müsbət gözləntilərini yalnız neft gəlirlərinin artımı ilə bağlamırlar və həmin artımın digər amillərlə (islahatların aparılması və s.) uyuşmasına əsaslanırlar. Nəhayət, hər bir halda Azərbaycanda vəziyyətin yaxşılaşacağına inanan respondentlər qrupu (aşkar azlıq təşkil edənlər) aydın görünürdü. Onların cavabını “düşünülməmiş nikbinlik” də adlandırmaq olar.

## 3. Sosioloji sorğu nəyi göstərir: əsas sosial nəticələr

1. Beynəlxalq təcrübənin təhlili göstərdi ki, praktikada neft-qazla zəngin ölkələrin çox azı sosial gərginlikdən qaça bilmişdir, lakin bu cür gərginliklərin səbəbləri, adətən, kompleks xarakter daşıyır. Keçirilmiş sosioloji monitorinqin nəticələrindən aydın olur ki, Azərbaycanda mövcud vəziyyət sabit olaraq qalmaqdadır. Sorğu iştirakçılarının mütləq əksəriyyətinin fikrincə, kütləvi etiraz aksiyalarının baş verməsi gözlənilmir. İnsanların 90%-dan çoxu özlərini həm ölkə, həm də yaşadıqları ərazi daxilində təhlükəsiz hiss edirlər. Azərbaycandakı həyatla bağlı respondentlərin əhvalında əsasən müsbət hisslər üstünlük təşkil edir. Bununla belə, son 2 ildə həyatı "əlacsızlıq" ifadəsi ilə xarakterizə edənlərin sayı bir qədər artsa belə, bu qrup sorğu iştirakçılarının 15-17%-i arasında qalmaqdadır. Bunlar ölkədə gedən iqtisadi inkişafdan kənar qalan və ondan faydalanmayan stabil qrupdur ki, inflyasiyanın artımından və dünyada olan iqtisadi böhrandan zərər çəkir.

2. Respondentlərin cavablarına əsasən qeyd etmək olar ki, beş illik sosioloji monitorinq dövründə əhalinin maddi vəziyyəti yaxşılaşırdı. Görünür ki, dünyada baş vermiş maliyyə və iqtisadi böhran, hələ ki, Azərbaycan əhalisinin əksəriyyətinə o qədər də təsir göstərməyib. Buna baxmayaraq, son 2 ildə ailələrdəki maddi vəziyyətinin pisləşdiyini qeyd edən respondentlərin sayı bir qədər artmışdır. Ölkə əhalisinin rifahında dərinləşən qütbləşmə əlamətləri nəzərə çarpmaqdadır. Sorğu iştirakçılarının cavablarına əsasən, ölkə əhalisinin yarıdan çoxu yoxsulluq səviyyəsindədir, 9-10%-i isə kəskin ehtiyac içində yaşayır. Belə ki, sosioloji monitorinq dövründə onların sayı cüzi olaraq enirdi. Respondentlərin təxminən üçdə bir hissəsi maddi çətinliyin olmadığını qeyd etmişdir. Bu rəqəm son illərdə sabitdir, baxmayaraq ki, son 5 ildə Azərbaycan iqtisadi artım sürətinə görə (ümumi daxili məhsulun (ÜDM) ikiqat artımı) dünyada birincidir. Dolayısı ilə bu nəticə orta təbəqənin bərpası prosesinin ölkədə zəif getdiyini təsdiqləyir.

3. Respondentlər öz gələcəyini qiymətləndirəndə, ölkə ilə bağlı sualın cavablarından fərqli olaraq, daha ehtiyatlı və realistik mövqe tuturlar. Respondentlərin təxminən yarısı hesab edir ki, onların vəziyyətində əhəmiyyətli dəyişikliklər baş verməyəcəkdir. Optimistlərin sayı təqribən üçdə bir hissəni təşkil edir. Vəziyyətlərinin pisləşəcəyini zənn edənlərin sayının artımı da diqqəti cəlb edir. Görünür ki, dünyada baş verən iqtisadi böhran təkcə ölkəyə yox, ayrıca şəxslərə də təsir göstərir.

4. Əhalinin üstün hesab etdiyi problemlərlə artan neft gəlirlərinin yönəldilməli olduğu problemlər arasında birbaşa korrelyasiya müşahidə olunur. Sorğu iştirakçılarının tam əksəriyyəti işğal altındakı torpaqların azad olunması məqsədilə ordunun möhkəmləndirilməsi üzrə tədbirlərin maliyyələşdirilməsinin tərəfdarıdır. Sonrakı yerdə isə iş yerlərinin yaradılması, yəni işsizlik probleminin həlli dayanır. Təqaüd və müavinətlərin yüksəldilməsi və neft gəlirlərinin bir hissəsinin əhaliyə birbaşa ödənilməsi yoxsulluğun azaldılması kontekstində baxıla bilər. Birbaşa ödənişlər ideyası, öz zahiri cazibədarlığına baxmayaraq, görünür ki, respondentlərin əksəriyyəti bunu və kütləvi tələbat mallarının aşağı qiymətlərinin saxlanılması üçün onlara maliyyə dəstəyi verilməsini real hesab etmir. Kiçik və orta biznesin, fermerliyin kreditləşdirilməsi ideyası isə böyük dəstək alıb. Nə qədər təəccüblü olsa da, demək olar ki, neft gəlirlərinin xərclənməsi məsələlərinə münasibətdə əhalinin şüurunda mühafizəkar-bazar yanaşmaları tarazlı-sosialist yanaşmalarını üstələyir.

5. Neft gəlirlərinin artmasının mümkün olan mənfi nəticələri və səmərəsiz xərclənməsi riskləri hələlik cəmiyyətin şüurunda qeyri-adekvat qavranılır. Belə ki, inflyasiya təzyiqini cüzi azlıq gözləyir. Bu kontekstdə daha çox sayda sorğu iştirakçısını korrupsiya və varlılarla yoxsullar arasında təbəqələşmənin cəmiyyətdə dərinləşməsi qayğılandırır, eləcə də islahatların ləngiməsi və hakimiyyət avtoritarizminin çox güclənməsi güman edilir.

## 4. Azərbaycan özəlliyi, mümkün perspektivlər və tövsiyələr

İstənilən halda cəmiyyətdə qeyri-bərabərliyin mövcudluğu davamlı stabil inkişaf üçün ciddi maneədir. Hətta ən inkişaf etmiş OECD ölkələrində belə cəmiyyətin ayrı-ayrı qruplarının gəlirliyi arasında fərq artdıqda (Cini koefisienti), bu, siyasətçiləri ciddi düşünməyə vadar edir, yaranmış vəziyyətin səbəbləri araşdırılır, çıxış yolu aradılır. Məlum həqiqətdir ki, varlılarla kasıblar arasında dərin ucurumun yaranması ciddi siqnal kimi gələcək qarşıdurmaların sələfi ola bilər. Amma inkişaf etmiş ölkələrdə qeyri-bərabər gəlirlilik əsasən sahibkarlıq gəlirinə əsaslanır və bu mənada müəyyən həddə qədər konflikt yaratmaya da bilər. Əgər qeyri-bərabərliyin əsasında bir qrupun digərlərinə nisbətdə daha az gəlir əldə etməsi durursa, motivasiya aydındır – daha çox pul qazanmaq lazımdır. Amma bu fonda neft və digər təbii resurs ölkələrində qeyri-bərabərliyin mövcudluğu daha ciddi fəsadlara gətirə bilər. Çünki burada qeyri-bərabər maddi duruma malik olmaq əsas etibarilə ədalətsiz bölgünün nəticəsi olur. Əsas gəlirləri dövlətə məxsus olan neft ölkələrində məhz dövlət (hakimiyyət) bu vəsaitin cəmiyyətin ayrı-ayrı qrupları arasında düzgün, səmərəli və ədalətli bölgüsünə məsuldur. Bu halda, heç şübhəsiz ki, inkişaf etmiş ölkələrin təcrübəsindən fərqli olaraq, burada, məsələn, Cini əmsalının yüksək olması daha həssasdır və buna ilk növbədə hakimiyyət diqqət çəkməlidir.

Azərbaycanda gəlirlər statistikası olduqca qeyri-dəqiqdir. Gəlirlərin əsas hissəsini kölgə iqtisadiyyatında əldə edən əksər sosial təbəqə, eləcə də gəlirlər bəyannaməsini təqdim etməyən zəngin təbəqə bu statistikanı qeyri-real edir. İlk növbədə məhz bu səbəbdən ölkədə Cini əmsalı hesablanmır. Ən sonuncu rəqəm 2000-ci ildə açıqlanmışdır ki, o da reallıqdan çox uzaq idi.

Beləliklə, ölkədə gəlirlərin qeyri-bərabər bölümü ciddi faktor kimi nəinki öyrənilmir, hətta müvafiq statistikaya mailk deyil. Bu halın özü problemə nə qədər soyuq münasibətin olmasından xəbər verir. Bu hal həm də ondan xəbər verir ki, perspektiv idarəedilən deyil və istənilən fəsadlar özünü göstərə bilər.

Hazırkı mərhələdə ölkədə sosial durum aşağıdakılarla səciyyələndirilir:

1. Müstəqillik dövrünün ilk illərindən fərqli olaraq, yoxsulluq probleminin kəskinliyi bir qədər azalmışdır. İlk növbədə bu, son 10

ildə yoxsulluq həddinin kəskin azalaraq 49%-dən 11%-ə enməsi ilə əlaqələndirilir. Qeyd edək ki, bu dövr ərzində dövlət büdcəsinin imkanları ilk növbədə daxil olan neft gəlirləri hesabına 15 dəfə artmışdır. Büdcənin isə, bir qayda olaraq, 25-30%-ə (2009-cu ildə konkret olaraq 26,2%-i) yaxını sosial sahələrə ayrılır. Bütün bunlar ölkədə yenə də əsasən neft gəlirləri hesabına, dolayısı ilə yaranan effektdən yararlanan kölgə iqtisadiyyatının imkanlarının genişlənməsinə, habelə tikinti və xidmət sahələrində (qeyri-ticari sektor) yaradılan yeni iş yerlərinin sayəsində həm muzdlu əməkhaqqının, həm pensiya və müavinətlərin artımı hesabına yoxsulluq probleminin ciddi fəsadlarını xeyli dərəcədə səngitmişdir.

2. Bununla belə, 2004-cü ildən başlayan və 2008-ci ildə maksimum 20% həddinə çatan inflyasiya əksər ailələr üçün çoxsaylı ərzağa çıxışı ciddi şəkildə məhdudlaşdırmışdır. İnflyasiya artan neft gəlirlərinin obyektiv və gözlənilən neqativ fəsadlarından biri, bəlkə də, bırincisidir. İnflyasiya xüsusilə kasıb təbəqəyə ciddi ziyan vurdu, yenicə əldə edilən maddi durum balansını pozdu. Bir qrup təbəqəni çıxmaq şərtilə, əksər muzdlu əməkhaqqıdan asılı olan təbəqə üçün (buraya təhsil, səhiyyə, mədəniyyət və digər sahələr aid edilə bilər) yeni sosial-iqtisadi şərait təsirli dərəcədə neqativ oldu və onlar hələ də bu şokdan özlərinə gələ bilməyiblər. Yüksək inflyasiya dövrünün ən ciddi siqnalı paralel olaraq kommunal xidmətlərin qaldırılması oldu. Kasıb təbəqə hələ indi də bu tariflərlə barışmaq istəmir. Nəticə kimi vaxtaşırı olaraq bu yönümdə sosial konfliktlər yaranır.

3. Məhz 2004-cü ildən başlayaraq neft ixracından ölkəyə daxil olan valyutanın kəskin artması nəticəsində yeni sosial situasiya yaranmışdır. Sosial gərginliyin yeni mərhələdə artıq başqa səbəblərdən artması müşahidə olunur. Əldə olunan gəlirlərin, əhalinin əksəriyyətinin fikrincə, qeyri-ədalətli bölgüsü bu gərginliyin artmasının əsas səbəblərindən biridir. İnsanlar mütləq mənada kasıblaşmadan yox, nisbi kasıblıqdan, əgər belə demək mümkünsə, mənəvi əzab çəkirlər. Son dövrlər tempi həddən artıq artan intihar hadisələri də sosial ümidsizlik simptomlarından sayıla bilər.

4. “Korrupsion vergi”nin (korrupsiya yükünün) kəskin artması vəziyyəti bir qədər də gərginləşdirir. Korrupsiya təbii resursla zəngin ölkələrin mütləq əksəriyyətində mövcuddur və əhalinin böyük narahatlığına səbəb olur. Bəzi hallarda hətta məhz bu faktor

hakimiyyətin qeyri-qanuni yolla dəyişdirilməsinə gətirib çıxarır. Digər ölkələrdə də olduğu kimi, korrupsiya Azərbaycanda əsasən əhalinin kasıb təbəqəsinin boynunda olan kvazi vergidir və bu səbəbdən ölkədə korrupsiya yükünü son anda məhz kasıb təbəqə çəkməli olur. Heç şübhəsiz ki, bu baxımdan korrupsiya ölkədə sosial gərginliyin artımı üçün əlavə bir faktordur.

5. Pozitiv cəhət kimi xüsusi qeyd etmək lazımdır ki, ölkədə neft amili üzərində milli konflikt yoxdur. Bu, ilk növbədə neft və qazın əsasən paytaxtda, paytaxtətrafı, daha çox paytaxtın offşor zonasında hasil edilməsi ilə əlaqələndirilə bilər. Milli azlıqların məskunlaşdığı əsasən cənub, şimal, şimal-qərb zonalarında, demək olar ki, mineral resurslar hasil edilmir. Digər bir amil kimi Azərbaycanın unitar ölkə quruluşlu, habelə büdcə sisteminin ifrat mərkəzləşmiş quruluşa malik olması və vəsaitin vahid mərkəzi büdcəyə cəmlənərək sonra administrativ bölgələrə subsidiya edilməsi praktikasıdır. Bölgələrə vəsaitin ayrılması ənənəvi yerli ehtiyacların qiymətləndirilməsi əsasında aparılır, baxmayaraq ki, bu qiymətləndirmə bəzi hallarda ciddi sual doğurur, vəsaitin bu və ya digər bölgəyə ayrılmasının obyektiv zərurətə söykəndiyini şübhə altına qoyur.

6. Hazırda ictimai vəsaitin ədalətli bölgüsü ilə bağlı ayrı-ayrı sosial, professional və milli qruplar arasında açıq sezilən ciddi ziddiyyət və qarşıdurma yoxdur. Azərbaycanda əsas etibarilə aşağıdakı sosial qrupları qeyd etmək olar: hakimiyyət qrupu (dövlət işində işləyən muzdlu işçilər, habelə hakimiyyətin bütün qollarını təmsil edən, hətta onun seçkili orqanlarında fəaliyyət göstərənlər), sahibkarlar qrupu (bu qrup, demək olar ki, yekcinsdir və kiçik bir hissəni çıxmaq şərtilə, hakimiyyətə loyaldır və hətta hakimiyyət qrupu mümayəndələri ilə birgə biznes qurur), intellektual elita (çox zəif, eyni zamanda böyük əksəriyyətinin yenə də hakimiyyət qrupuna tərif yağdıran, ən yaxşı halda isə cəmiyyətin köklü problemlərinə susan təbəqə), siyasi müxalifət (ənənəvi siyasi liderlər və onların ətrafı, üstəgəl hakimiyyətin özünün yaratdığı kvazi müxalifət qrupları, nəhayət, yuxarıda adları çəkilən qrupların heç birində təmsil olunmayan adi insanlar).

Bu qrupların hər birinin özünün daxili maraq dairəsi və motivasiyası var. Baxmayaraq ki, qrupdaxili ziddiyyətlər də mövcuddur və bu ziddiyyət xüsusilə hakimiyyət qrupunda özünü büruzə verir. Amma daha vacibi odur ki, hazırda ölkədə qruplararası konfliktlər ya yoxdur, ya

da çox zəifdir. Məhz bu amil ölkədə sosial gərginliyin indiki mərhələdə bir o qədər də təsirli olmadığından xəbər verir. Ancaq ölkənin kiçik və xarici manipulyasiyaya açıq olması ölkə daxilində yeni sosial gərginlik episentrlərinin yaradılması üçün obyektiv şəraitdən istifadə imkanlarını artırır.

Tədqiqat qrupu ölkədə neft gəlirlərinin idarə olunmasının sosial gərginliyə mümkün təsirlərini yumşaldacaq əsas tərəf olan hökumətin nəzərinə aşağıdakı ***tövsiyələri*** çatdırır:

1. Son dövrlər həssaslığı artan sosial qrupların, xüsusən də mülkiyyət hüququ pozulan təbəqənin sayının və kritik təsirlərinin artmaması üçün mülkiyyət hüquqlarının pozulmamasına yüksək səviyyəli ciddi nəzarət mexanizmi qurulmalıdır.

2. Dövlət Neft Fondundan əhaliyə birbaşa dividendlərin ödənilməsi məsələsinin ictimai müzakirəyə çıxarılması. Bu zaman "Alyaska" modelinə bu və ya digər formada yaxın olan bir formatdan söhbət gedə bilər. Məsələn: fonda toplanan vəsaitin adambaşına düşən hissəsindən 10%-lik payın (2000$ * 10% = 200$) hər il müəyyən aztəminatlı əhali qruplarına və ya bütün işçi qüvvəsinə birdəfəlik ödəniş (dividend) kimi ödənilməsi.

3. Xam neft ixracının ÜDM-ə nisbətinin kritik 30%-lik həddən aşağı salınması üçün zəruri iqtisadi tədbirləri ortamüddətli dövrdə həyata keçirmək.

4. Əhali qrupları arasındakı latent gərginliyin əsaslı diaqnostikası üçün ildə, ən azı, dörd dəfə irihəcmli sosioloji sorğuların keçirilməsinin dəstəklənməsi və bunun əsasında "sosial davranışların proqnozlaşdırılması".

5. Artan intiharlar və hər 100 min nəfərə düşən cinayətlərin dinamikasını hərtərəfli təhlil etmək, eyni zamanda cəmiyyətdə sosial və ailə münasibətlərinin loyallaşdırılmasına yönəlik informasiyalandırma işlərinin gücləndirilməsi.

6. Dövlət idarəçiliyi aparatındakı zəruri institusional islahatları ləngitməmək və hökumətin refleksivliyinə maksimum nail olmaqla "yaxşı idarəetmə" (*good governance*) prinsiplərinin bərqərar edilməsi.

## Əlavə 1.
## Tanınmışlar cəmiyyətdə sosial gərginlik simptomları haqda nə deyir (2008-2010)?

1. Yazıçı, kinossenarist, prodüser, dramaturq, ssenarist, nüfuzlu "Oskar" mükafatı laureatı, xalq yazıçısı, Rusiya və Azərbaycanın əməkdar artisti ***Rüstəm İbrahimbəyov***:

*– Ruslar deyirlər, üzünü itirməkdən heç kəs qorxmur. Heç kim qorxmur ki, üzünə tüpürüb deyəcəklər: sən axı ziyalıların hüquqlarını pozursan, amma sən hansısa şirkətin rəhbərisən. Basin küçəsində üç yüz ailəni atıblar küçəyə, pullarını da vermirlər... Mən nədən qorxuram: belə şeylərin axırı üsyana gətirir. Necə ki, Qırğızıstanda oldu. Bunlar qorxulu şeylərdir. Bu bizi 50 il dala atacaq. Ona görə ziyalılar birləşib öz güclərini göstərməsələr, vəziyyət gərginləşəcək.*

http://www.azadliq.org/content/article/2035660.html

2. *Şair* ***Ramiz Rövşən****:*

*– Cəmiyyəti yalandan azad etmək üçün ortaya fərqli əxlaq qoymaq lazımdır. İnsanlar niyə passivləşib? Çünki inamlarını itiriblər. İnsan namuslu adama inanır. Amma o biri tərəfdən, mitinqdən, insanların bir yerə toplaşmasından qorxmaq da bir fəlakətdir.*

http://www.azadliq.org/content/article/2031548.html

3. Azərbaycan Respublikasının Prezidenti ***İlham Əliyev***:

*– Ölkədə köklü sosial problemlər öz həllini tapmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı altı il ərzində 49 faizdən 11 faizə düşmüşdür. Bu onu göstərir ki, ölkəyə gələn maddi resurslar ədalətli şəkildə bölünür. Sosial ədalət bizim fəaliyyətimizin əsas istiqamətlərindən biridir.*

http://www.azerbaijan-news.az/index.php?Lng=aze&year=2010&Pid=3714

4. Dünya şöhrətli alim, professor ***Rafiq Əliyev***:

*– Gəlin dünyanın xəritəsinə baxaq, neft ölkələrinin hamısının ərazisindən qan iyi gəlir.*

http://lent.az/news.php?id=9315

5. Keçmiş iqtisadi inkişaf naziri ***Fərhad Əliyevin*** məhkəmədəki çıxışından (01.07.2008):

*– Mən monopoliya ilə mübarizə aparmışam. O zaman deyirdilər ki, monopoliya yoxdur. İndi etiraf etmək məcburiyyətində qalıblar. Tarif Şurasının sədri olarkən mənə enerji daşıyıcılarının qiymətini qaldırmaq üçün 10 milyonlarla pul təklif edirdilər. Razılaşmırdım. İndi özləri istehsal edib, özləri də satırlar, qiymətləri də istədikləri kimi qaldırırlar. Həmin vaxt mən Prezidentə enerji daşıyıcılarının qiymətinin 12 faizdən artıq qaldırılmasının yolverilməz olduğunu izah etdim. Bildirdim ki, bu, sosial gərginliyə səbəb olacaq. İndiki şərait bir qədər əvvəl buraxılmış səhvlərin nəticəsidir. Deyirdim ki, demoqrafik vəziyyət pis gündədir. Bu, hətta Qarabağ problemindən də artıq problemə çevriləcək. Əgər mən dövlət çevrilişi etmək istəsəydim, elə pulu alıb cibimə qoyardım, sosial gərginlik yaranardı. Bu qədər düşmən qazanmazdım. Həmin vəziyyətdən istifadə edib istədiyimi edərdim. Mən bu problemlərin aradan qaldırılması üçün Prezidentə yazırdım. Prezidentə arxayın olub işləyirdim, o da məni müdafiə edirdi. Amma axırda onu yalan-yalan məruzələrlə inandırdılar. Enerji daşıyıcılarının qiymətini qaldırıb 10 milyonlarla pul qazandılar, qeyri-neft sektorunu bərbad vəziyyətə qoydular.*

http://www.faliyev.org/az/news/show/1060

6. Milli Məclisin Sosial siyasət komitəsinin sədri ***Hadi Rəcəbli***:

*– …Bu gün pensiya yaşının artımını çox ciddi sosial gərginlik mövzusu kimi cəmiyyətə sırımaq istəyənlər bilməlidirlər ki, bu sahədə atılan addımlar tədricən, zaman-zaman həyata keçiriləcək və hər il 6 ay müddətinə pensiya yaşı artırılacaqdır. Son nəticədə altı ildən sonra qadınlar 60 yaşda, kişilər isə iki ildən sonra 63 yaşda pensiyaya çıxacaqlar.*

http://az.apa.az/news.php?id=167328

7. «Əbu Bəkr» məscidinin imamı ***Qamət Süleyman***:

*– Biz hələ də kommunist ab-havasından çıxmamışıq. Görünür, bəzi məmurları ibadət edən insanların artması narahat etməyə başlayıb. Nəticədə məscidlər bir-birinin ardınca ya bağlanır, ya da bağlanma təhlükəsiylə üzləşir… Hakimiyyət başa düşməlidir ki, məscidlərin bağlanması radikallığın artmasına səbəb olacaq. Mən başa düşmürəm hakimiyyət nədən bütün bunları nəzərə almır?..*

http://www.azadliq.org/content/article/2049942.html

**Əlavə 2.**

**XX əsrin ikinci yarısında əsasən resursla zəngin ölkələrdə baş verən və hər birində, ən azı, 1000 nəfərin öldüyü vətəndaş müharibələri**

| Ölkə | Vətəndaş müharibəsinin başlanması (ay/il) | Vətəndaş müharibəsinin sonu (ay/il) | Daha əvvəl bunun presedenti olubmu? (1945-1994) |
|---|---|---|---|
| Əfqanıstan | 04/78 | 02/92 | |
| Əfqanıstan | 05/92 | Davam edir | * |
| Əlcəzair (r) | 07/62 | 12/62 | * |
| Əlcəzair (r) | 05/91 | Davam edir | * |
| Anqola (r) | 02/61 | 11/75 | |
| Anqola (r) | 11/75 | 05/91 | * |
| Anqola (r) | 09/92 | Davam edir | * |
| Azərbaycan (r) | 04/91 | 10/94 | |
| Bosniya | 03/92 | 11/95 | |
| Birma\Myanmar | 68 | 10/80 | * |
| Birma\Myanmar | 02/83 | 07/95 | * |
| Burundi | 04/72 | 12/73 | |
| Burundi | 08/88 | 08/88 | * |
| Burundi | 11/91 | Davam edir | * |
| Kamboca (r) | 03/70 | 10/91 | * |
| Çad (r) | 03/80 | 08/88 | |
| Çin (r) | 01/67 | 09/68 | * |
| Kolumbiya (r) | 04/84 | Davam edir | * |
| Konqo (r) | 97 | 10/97 | |
| Kipr | 07/74 | 08/74 | |
| Dominikan | 04/65 | 09/65 | |
| El Salvador (r) | 10/79 | 01/92 | |

| | | | |
|---|---|---|---|
| Efiopiya | 07/74 | 05/91 | |
| Gürcüstan | 06/91 | 12/93 | |
| Qvatemala | 07/66 | 07/72 | * |
| Qvatemala | 03/78 | 03/84 | * |
| Qvineya-Bis-sau (r) | 12/62 | 12/74 | |
| Hindistan | 08/65 | 08/65 | * |
| Hindistan | 84 | 94 | * |
| İndoneziya (r) | 06/75 | 09/82 | * |
| İran (r) | 03/74 | 03/75 | |
| İran (r) | 09/78 | 12/79 | * |
| İran (r) | 06/81 | 05/82 | * |
| İraq (r) | 09/61 | 11/63 | * |
| İraq (r) | 07/74 | 03/75 | * |
| İraq (r) | 01/85 | 12/92 | * |
| İordaniya | 09/71 | 09/71 | |
| Laos | 07/60 | 02/73 | * |
| Livan | 05/75 | 09/92 | * |
| Liberiya (r) | 12/89 | 11/91 | |
| Liberiya (r) | 10/92 | 11/96 | * |
| Mərakeş | 10/75 | 11/89 | * |
| Mozambik | 10/64 | 11/75 | |
| Mozambik | 07/76 | 10/92 | * |
| Nikaraqua | 10/78 | 07/79 | |
| Nikaraqua | 03/82 | 04/90 | * |
| Nigeriya (r) | 01/66 | 01/70 | |
| Nigeriya (r) | 12/80 | 08/84 | * |
| Pakistan | 03/71 | 12/71 | |
| Pakistan | 01/73 | 07/77 | |
| Peru (r) | 03/82 | 12/96 | |
| Filippin (r) | 09/72 | 12/96 | * |
| Rumıniya | 12/89 | 12/89 | |

| | | | |
|---|---|---|---|
| Rusiya (r) | 12/94 | 08/96 | |
| Rusiya (r) | 09/99 | Davam edir | * |
| Ruanda | 11/63 | 02/64 | |
| Ruanda | 10/90 | 07/94 | * |
| Syerra Leone (r) | 03/91 | 11/96 | |
| Syerra Leone (r) | 05/97 | 07/99 | * |
| Somali | 04/82 | 05/88 | |
| Somali | 05/88 | 12/92 | * |
| Şri-Lanka (r) | 04/71 | 05/71 | |
| Şri-Lanka (r) | 07/83 | Davam edir | * |
| Sudan (r) | 10/63 | 02/72 | |
| Sudan (r) | 07/83 | Davam edir | * |
| Tacikistan | 04/92 | 12/94 | |
| Türkiyə | 07/91 | Davam edir | |
| Uqanda | 05/66 | 06/66 | |
| Uqanda | 10/80 | 04/88 | * |
| Vyetnam | 01/60 | 04/75 | * |
| Yəmən (r) | 05/90 | 10/94 | |
| Yəmən (r) | 11/62 | 09/69 | * |
| Yəmən (r) | 01/86 | 01/86 | * |
| Yuqoslaviya | 04/90 | 01/92 | |
| Yuqoslaviya | 10/98 | 04/99 | * |
| Zair (r) | 07/60 | 09/65 | |
| Zair (r) | 09/91 | 12/96 | * |
| Zair (r) | 09/97 | 09/99 | * |
| Zimbabve (r) | 12/72 | 12/79 | |

*(r) – resursla zəngin ölkə*

*Mənbə: Collier, Paul and Anke Hoeffler, 2002, "Greed and Grievance in Civil War", Oxford Economic Papers 56: 563-95.*

## İstinad edilən mənbələr:


1. Besley, Timothy J. and Torsten Persson, 2009, “The Logic of Political Violence”. London School of Economics and Stockholm University.
2. Brunnschweiler, Christa and Erwin Bulte, 2009, “Natural Resources and Violent Conflict: Resource Abundance, Dependence and the Onset of Civil Wars”, *Oxford Economic Papers* 61: 651-74.
3. Bohn, Henning and Robert Deacon, 2000, “Ownership Risk, Investment, and the Use of Natural Resources”, *American Economic Review* 90: 526-49.
4. Collier, P. and A.Hoeffler (1998) On Economic Causes of Civil War, Oxford Economic Papers 50: 563-573.
5. Collier, P. and A.Hoeffler (2002) “The Political Economy of Secession”. World Bank, Development Research Group, Washington, D.C.; University of Oxford, Centre for the Study of African Economies, June 30. Available at www.ifc.org/ogmc/pdfs/Paul-Collier.pdf.
6. Collier, Paul and Anke Hoeffler, 2002, “Greed and Grievance in Civil War”, *Oxford Economic Papers* 56: 563-95.
7. Collier, Paul, Anke Hoeffler and Mans Soderbom, 2004, “On the Duration of Civil War”, *Journal of Peace Research* 41: 253-73.
8. Collier, Paul, Anke Hoeffler and Dominic Rohner, 2009, “Beyond Greed and Grievance: Feasibility and Civil War”, *Oxford Economic Papers* 61: 1-27.
9. Collier, Paul and Dominic Rohner, 2008, “Democracy, Development, and Conflict”, *Journal of the European Economic Association* 6: 531-40.
10. De Soysa, I. (2002) Paradise is a Bazaar? Greed, Creed and Governance in Civil War 1989-1990. *Journal of Peace Research* 39(4): 395-416
11. Dunning, T., 2005. Resource Dependence, Economic Performance, and Political Stability, Journal of Conflict Resolution 49: 451-482
12. Heinrich Böll Stiftung Memorandum, 2008, “To Have and Have Not: Resource Governance in the 21st Century”. www.boell.de/resource_governance

13. Homer-Dixon, T.F. (1999) Environment, Scarcity and Violence. Princeton N.J.: Princeton University Press.

14. Humphreys, Macartan, 2005, “Natural Resources, Conflict, and Conflict Resolution: Uncovering the Mechanisms”, *Journal of Conflict Resolution* 49: 508-37.

15. Jensen, N. and L. Wantchekon, 2004. Resource Wealth and Political Regimes in Africa, Comparative Political Studies 37: 816-841

16. Le Billon, Philippe. 2001. Fuelling war: natural resources and armed conflict. International Institute for Strategic Studies, Adelphi Paper 357

17. Leite, C and J. Weidmann, 2002. Does Mother Nature Corrupt? Natural Resources,

18. Corruption and Economic Growth. Chapter 7 in Abed, G. and S. Gupta (eds.): *Governance, Corruption, and Economic Performance*, Washington DC: International Monetary Fund, 159-196.

19. Lujala, P., 2005. *The Spoils of Nature: Armed Civil Conflict and Rebel Access to Natural Resources*, Department of Economics, Norwegian University of Science and Technology, Working Paper

20. Mehlum, Halvor, Karl Moene and Ragnar Torvik, 2006, “Institutions and the Resource Curse”, *Economic Journal* 116: 1-20.

21. Robinson, James, Ragnar Torvik and Thierry Verdier, 2006, “Political Foundations of the Resource Curse”, *Journal of Development Economics* 79: 447-68.

22. Ross, Michael, 2004, “What Do We Know About Natural Resources and Civil War?”, *Journal of Peace Research* 41: 337-56.

23. Ross, M.L., 2004b. How do Natural Resources Influence Civil War? Evidence from 13 Cases. International Organisation 58: 35-68

24. Ross, M.L., 2003. Oil, Drugs and Barons: The Varying Role of Natural Resources in Violent Conflict. In: K. Ballantine and J. Sherman (eds.), *The Political Economy of Armed Conflict: Beyond Greed and Grievance*. London: Lynne Riener.

25. Smith, B., 2004. Oil Wealth and Regime Survival in the Developing World, 1960-1999. American Journal of Political Science 48: 232-246